Azərbaycan Respublikası Prezidentinin
2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı ilə
təsdiq edilmişdir

**Əlavə 4**

## *Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda* kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi[1]

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Azərbaycan Respublikasında sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə dövlət dəstəyi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 1599 nömrəli Fərmanının 5.3-cü bəndinin icrası məqsədilə hazırlanmışdır və *Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra – Fond)* fəaliyyətində risklərin azaldılması üçün kredit reytinqi sisteminin və digər risklərin idarə edilməsi alətlərinin tətbiqi qaydalarını müəyyən edir.[2]

1.2. *Fond* risklərin idarə edilməsi sisteminin formalaşdırılmasında bu Qaydanın tələblərini və bu sahədə qabaqcıl beynəlxalq standartları nəzərə alır.

1.3. Bu Qaydada göstərilən risklərin idarə edilməsi alətlərinin tətbiqi mexanizmləri *Fondun İdarə Heyəti* tərəfindən müəyyən edilən daxili qayda və prosedurlar əsasında həyata keçirilir.[3]

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydanın məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

2.1.1. risk – ehtimal olunan və ya gözlənilməz hadisələrin baş verməsi nəticəsində yarana biləcək xərclərin (zərərin) müvəkkil bankın və (və ya) *Fondun* kapitalına mənfi təsir göstərməsi ehtimalı;

2.1.2. risklərin idarə edilməsi sistemi – risklərin idarə edilməsi üzrə bu Qayda ilə və digər hüquqi aktlarla müəyyən edilən elementlərdən ibarət sistem;

2.1.3. riskin minimuma endirilməsi – müxtəlif tənzimləmə metodları vasitəsilə risklərin azaldılması;

2.1.4. kredit riski – borcalanın kredit üzrə öhdəliyinin vaxtında və ya tam icra olunmaması nəticəsində yaranan risk;

2.1.5. kredit reytinqi modeli – *Fond* tərəfindən kredit risklərinin minimuma endirilməsi məqsədilə meyarları bu Qayda ilə müəyyən edilmiş qiymətləndirmə aləti;

2.1.6. təminatın likvid dəyəri – kredit təminatının bazar dəyərinin müəyyənləşdirilməsi üçün müvafiq marketinq keçirilməsi vaxtının məhdudluğu şəraitində onun satış qiyməti;

2.1.7. təminatın kreditə nisbəti – kreditin verilmə tarixinə kredit təminatının likvid dəyərinin kreditin əsas məbləğinə (kredit xətti üçün kredit xəttinin həcminə) nisbəti;

2.1.8. erkən xəbərdarlıq sistemi – risklərin idarə edilməsi sistemində müxtəlif kəmiyyət və keyfiyyət meyarlarının müəyyən edilmiş hədlərə yaxınlaşması nəticəsində müxtəlif təhlükələrin yaranma ehtimallarını və risklər barədə erkən xəbərdarlıq məlumatlarını çatdıran və risklərin monitorinqi üçün istifadə olunan sistem;

2.1.9. likvidlik kəsiri – eyni ödəniş müddətinə aid olan aktivlərlə öhdəliklər arasındakı fərq.

2.2. Bu Qaydada istifadə olunan digər anlayışlar Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nda və Azərbaycan Respublikasının başqa normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

## 3. Risklərin idarə edilməsi sistemi

3.0. *Fondun* risklərin idarə edilməsi sistemi aşağıdakıları əhatə edir:

3.0.1. risklərin idarə edilməsi strategiyası;

3.0.2. risklərin idarə edilməsinin təşkilati strukturu;

3.0.3. kredit reytinqi sistemi;

3.0.4. zəmanətin kreditə nisbətinin və illik komissiyanın hesablanması;

3.0.5. risklərin idarə edilməsinin digər alətləri;

3.0.6. hesabatlılıq və monitorinq.

## 4. Risklərin idarə edilməsi strategiyası

4.1. *Fondun* risklərin idarə edilməsi strategiyası ən azı aşağıdakıları əhatə edir:

4.1.1. risklərin idarə edilməsi üzrə hədəflər;

4.1.2. qəbul edə biləcəyi riskin yuxarı həddi;

4.1.3. aktivlərin və öhdəliklərin strukturu ilə bağlı strateji hədəflər;

4.1.4. makroiqtisadi mühitdə baş verən dəyişikliklərdən yarana biləcək risklərin idarə edilməsi.

4.2. Risklərin idarə edilməsi strategiyası ən azı 3 (üç) ili əhatə edir və *Fondun İdarə Heyəti* tərəfindən müəyyən edilir. *İdarə Heyəti* risklərin idarə edilməsi strategiyasının icra vəziyyətinin qiymətləndirilməsini ən azı ildə bir dəfə olmaqla təmin edir.

## 5. Risklərin idarə edilməsinin təşkilati strukturu

*5.1. Risklərin idarə edilməsi Fondun İdarə Heyəti, İdarə Heyətinin sədri tərəfindən yaradılan risklərin idarə edilməsi üzrə daxili komitə və digər məsul struktur bölmələr tərəfindən həyata keçirilir.*[4]

5.2. Risklərin idarə edilməsinin təşkilati strukturu aşağıdakı prinsiplər əsasında formalaşdırılır:

5.2.1. təşkilati strukturun bütün səviyyələri üzrə səlahiyyət və məsuliyyət bölgüsünün dəqiq müəyyənləşdirilməsi;

5.2.2. təşkilati strukturun bütün səviyyələri arasında məlumat axınının səmərəliliyinin təmin edilməsi;

5.2.3. struktur bölmələr və səlahiyyətli şəxslər arasında maraqlar münaqişəsinin qarşısının alınması;

5.2.4. təşkilati strukturun bütün səviyyələri üzrə hesabatlılığın və aşkarlığın təmin edilməsi;

5.2.5. qərar qəbuletmə prosesinin kollegiallığı, müstəqilliyi və şəffaflığının təmin edilməsi.

## 6. Kredit reytinqi sistemi

*6.1. Borcalanın kredit reytinqi Fondun kredit reytinqi modeli əsasında müəyyən olunur.*[5]

6.2. Kredit reytinqi modeli üzrə əldə edilmiş reytinq nəticələri yüksəkriskli, ortariskli və aşağıriskli olmaqla üç risk kateqoriyası üzrə təsnifləşdirilir.

6.3. Kredit reytinqi modeli formalaşdırılarkən borcalanın kredit *hesabatı*, habelə borcalanın ödəmə qabiliyyətini xarakterizə edən digər kəmiyyət və keyfiyyət göstəriciləri nəzərə alınır. Borcalanın kredit reytinqinin hesablanmasında kredit təminatı nəzərə alınmır.[6]

6.4. *Fond* tərəfindən tətbiq edilən kredit reytinqi modelinin parametrlərini (kəmiyyət və keyfiyyət göstəricilərini, onların hədlərini və xüsusi çəkilərini və s.) *Fondun İdarə Heyəti* müəyyən edir.

6.5. Kredit reytinqi modelinin etibarlılığının ən azı ildə bir dəfə qiymətləndirilməsini *İdarə Heyəti* təmin edir.

## *7. Zəmanətin kreditə nisbəti və illik komissiyanın müəyyən edilməsi*[7]

*7.1. Zəmanətin kreditə nisbəti (örtülmə əmsalı) müəyyən edilərkən bu Qaydanın 6.2-ci bəndinə əsasən müəyyən olunmuş risk kateqoriyası nəzərə alınmaqla, aşağıdakı cədvəldə göstərilən təminatın kreditə nisbəti (aşağı, orta və yuxarı) əsas götürülür:*

| ***Təminatın kreditə nisbəti*** | ***Risk kateqoriyası*** | |
|---|---|---|
| | ***Ortariskli*** | ***Aşağıriskli*** |
| *Aşağı* | *85%-dək* | *75%-dək* |
| *Orta* | *75%-dək* | *70%-dək* |
| *Yuxarı* | *70%-dək* | *65%-dək*[8] |

*7.2. Fondun kredit reytinqi modelinin nəticələrinə görə "yüksəkriskli" kateqoriyaya aid olan kreditlərə zəmanət verilmir.*

*7.3. Zəmanət məbləği bu Qaydanın 7.1-ci bəndində müəyyən olunmuş zəmanətin kreditə nisbəti nəzərə alınmaqla müvəkkil bankın müraciəti əsasında təyin edilir. Zəmanətin qüvvədə olduğu müddətdə zəmanətin kreditə nisbəti, müvəkkil bankın müraciəti əsasında, Azərbaycan*

*Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nda müəyyən edilmiş həddə qədər azaldıla bilər. Bu zaman zəmanətə görə illik komissiya dəyişdirilmir.*

*7.4. Təminatın kreditə nisbəti kateqoriyalarının (aşağı, yuxarı və orta) hədlərini Fondun İdarə Heyəti müəyyən edir və ona ən azı ildə bir dəfə olmaqla yenidən baxılır.*

*7.5. İllik komissiyanın həcmini Fondun Himayəçilik Şurası tərəfindən təsdiq olunmuş müvafiq qaydalara əsasən Fondun İdarə Heyəti müəyyən edir.*

## 8. Risklərin azaldılması üçün digər alətlər

8.1. *Fondun İdarə Heyəti* kredit, likvidlik, bazar, əməliyyat risklərinin və fəaliyyətindən irəli gələn digər risklərin tənzimlənməsi üçün risklərin idarə edilməsi alətlərini müəyyən edir.

8.2. Kredit risklərinin idarə edilməsi, kredit reytinqinin tətbiqi ilə yanaşı, ən azı aşağıdakıları əhatə etməlidir:

8.2.1. portfel üzrə limitlər:

1. iqtisadiyyatın sektorları və regionlar üzrə limitlər;

2. borcalan qrupları üzrə limitlər;

3. müvəkkil banklar üzrə zəmanətlərin qalıq məbləğinin bu Qaydanın *7.4-cü* bəndinə əsasən müəyyən edilən təminatın kreditə nisbəti kateqoriyaları üzrə limitlər (təminatın kreditə nisbətinin minimum həddini *Fondun İdarə Heyəti* müəyyən edir);[9]

4. *Fondun* vəsaitlərinin yerləşdirilməsinə dair hər bir investisiya aləti üzrə *Fondun İdarə Heyətinin* müəyyən etdiyi limitlər;

8.2.2. təminatın qiymətləndirilməsi:

1. *Fond* təminatın qiymətləndirilməsi, rəsmiləşdirilməsi, sığortalanması, şərtlərinin dəyişdirilməsi və təminat üzrə tələb hüququnun həyata keçirilməsi prosedurlarını müəyyən edir. Təminatın qiymətləndirilməsini siyahısı *Fondun İdarə Heyəti* tərəfindən təsdiq edilmiş müstəqil qiymətləndiricilər həyata keçirirlər;

8.2.3. kreditlərin restrukturizasiyası:

1. Kreditin restrukturizasiyası müvəkkil bankın müraciəti əsasında *Fondun* ~~səlahiyyətli orqanının~~ qərarı ilə həyata keçirilir. Restrukturizasiya yalnız ödəmə qabiliyyəti olan borcalanlara tətbiq edilir;[10]

8.2.4. stress-testlərin keçirilməsi:

1. *Fond* özünün maliyyə dayanıqlılığına təsir edə biləcək halların qabaqcadan müəyyən edilməsi və qarşısının alınması məqsədilə ildə 2 (iki) dəfə stress-testlər keçirir. Stress-test modelləri və stress-testlərin keçirilməsi qaydası *Fondun İdarə Heyəti* tərəfindən müəyyən edilir;

8.2.5. alternativ maliyyə alətlərinin tətbiqi:

1. Kredit risklərinin azaldılması məqsədilə *Fondun İdarə Heyəti* təkrar zəmanət, sığorta və digər alternativ maliyyə alətlərinin seçilməsi meyarlarını müəyyən edir.

8.3. Likvidlik risklərinin idarə edilməsi alətləri ən azı aşağıdakıları əhatə etməlidir:

8.3.1. *Fondun İdarə Heyətinin* təsdiq etdiyi likvidlik kəsiri üzrə limitlər;

8.3.2. növbəti dövrlər üzrə gözlənilən ödənişlərin, habelə *Fondun* likvidlik tələbinin proqnozlaşdırılması.

8.4. *Fond* tərəfindən müvəkkil banklar üzrə limitlərin müəyyən edilməsi zamanı veriləcək zəmanətlər üzrə bütün ödənişlərin mümkün yuxarı həddi *Fondun* kapitalının *Fondun İdarə Heyəti tərəfindən müəyyən edilən müvafiq həddindən* çox olmamalıdır. [11]

8.5. Bazar risklərinə həssaslıq ən azı rüblük əsasda qiymətləndirilir. *Fondun İdarə Heyəti* valyuta və faiz risklərinin minimuma endirilməsi üçün daxili qaydalar müəyyən edir.

8.6. Əməliyyat risklərinin azaldılması məqsədilə *Fondun İdarə Heyəti* qayda və prosedurlar müəyyən edir.

8.7. *Fond* müvəkkil banklardan daxil olan məlumatlardan, eləcə də digər mənbələrdən istifadə etməklə risklərin müəyyənləşdirilməsi məqsədilə erkən xəbərdarlıq sistemi yaradır.

*8.8. Fond risklərin idarə edilməsi sisteminin effektivliyini mütəmadi olaraq qiymətləndirir və onun təkmilləşdirilməsi ilə bağlı tədbirlər görür.*[12]

## 9. Hesabatlılıq və monitorinq

9.1. Müvəkkil banklar *"Elektron hökumət" portalında olan "Elektron ipoteka və kredit zəmanət" sistemi (bundan sonra – elektron sistem) vasitəsilə Fonda* ən azı aşağıdakı məzmunda hesabatlar təqdim edirlər: [13]

9.1.1. hər bir kredit üzrə öhdəliklərin gecikmə günləri də daxil olmaqla məlumatlar;

9.1.2. 30 gündən artıq gecikməsi olan kreditlərlə bağlı bankın gördüyü tədbirlərə dair məlumatlar;

9.1.3. krediti üzrə zəmanət verilmiş borcalanların həmin bankdakı öhdəlikləri və yerləşdirilmiş vəsaitləri barədə məlumatlar;

9.1.4. restrukturizasiya olunmuş kreditlər barədə məlumatlar.

~~9.1.5. zəmanətlər üzrə haqlarla bağlı məlumatlar.~~ [14]

9.2. Bu Qaydanın 9.1.1–9.1.4-cü yarımbəndlərində nəzərdə tutulan məlumatlara dair hesabatlar aylıq əsasda~~, 9.1.5-ci yarımbəndində nəzərdə tutulan məlumatlara dair hesabatlar isə rüblük əsasda~~ təqdim olunur. Hesabatların formasını və təqdim edilmə qaydasını *Fond* müəyyən edir. [15]

9.3. Müvəkkil bank ~~dövri~~ hesabatları hesabat dövründən sonrakı ayın 15-dək *Fonda* təqdim edir. [16]

9.4. Müvəkkil bankların təqdim etdikləri hesabatlar əsasında *Fond* informasiya sistemi formalaşdırır.

9.5. *Fond* kreditlərin anderraytinqinə, vəsaitdən təyinatına uyğun istifadəyə nəzarəti təmin etmək, habelə bank tərəfindən uyğunluğun və kredit reytinqi modelinin tətbiqini yoxlamaq məqsədilə, aşağıdakılar nəzərə alınmaqla, sahibkarlıq subyektlərində monitorinq aparılması ilə bağlı monitorinq sistemi təşkil edir:

9.5.1. monitorinq növbəti və növbədənkənar qaydada həyata keçirilir;

9.5.2. monitorinqin başlamasından ~~ən azı 3 (üç) iş günü~~ əvvəl sahibkarlıq subyekti və müvəkkil bank monitorinq barədə məlumatlandırılır;[17]

9.5.3. *Fondun* təşkil etdiyi monitorinq sahibkarlıq subyektinin səlahiyyətli nümayəndəsinin və (və ya) müvəkkil bankın nümayəndəsinin iştirakı ilə aparılır və müvafiq aktla rəsmiləşdirilir.

## *10. Keçid müddəa*[18]

*Elektron sistem fəaliyyətə başlayanadək bu Qaydanın 9.1-ci bəndində elektron sistem vasitəsilə təqdim edilməsi nəzərdə tutulmuş hesabatlar yazılı formada təqdim edilməlidir.*

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)**
2. 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)**
3. 4 oktyabr 2018-ci il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 5 oktyabr 2018-ci il, № 223, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 10, maddə 1991)**
4. 25 dekabr 2018-ci il tarixli **435** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2018-ci il, № 293, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2592)**
5. 21 may 2019-cu il tarixli **705** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 5, maddə 857)**
6. 16 dekabr 2019-cu il tarixli **880** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 17 dekabr 2019-cu il, № 280, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 12, maddə 1923)**
7. 7 may 2020-ci il tarixli **1016** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 8 may 2020-ci il, № 90, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 5, maddə 541)**
8. 21 sentyabr 2021-ci il tarixli **1446** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 22 sentyabr 2021-ci il, № 202)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə "Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyətində kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın adında "**Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyətində**" sözləri "**Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda**" sözləri ilə əvəz edilmişdir.

25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə "Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyətində kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 1.1-ci bəndi istisna olmaqla, mətn üzrə ismin müvafiq hallarında "**Cəmiyyət**" sözü ismin müvafiq hallarında "**Fond**" sözü ilə əvəz edilmişdir.

[2] 25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə "Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyətində kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 1.1-ci bəndində "**Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra – Cəmiyyət)"** sözləri "**Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra – Fond)"** sözləri ilə əvəz edilmişdir.

[3] 25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə "Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyətində kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 1.3-cü, 4.2-ci (hər iki halda), 5.1-ci (ikinci halda), 6.4-cü, 6.5-ci, 7.6-cı, 7.7-ci, 8.1-ci bəndlərdə, 8.2.1-ci yarımbəndin 3-cü və 4-cü abzaslarında, 8.2.2-ci yarımbəndin 1-ci abzasında, 8.2.4-cü yarımbəndin 1-ci abzasında, 8.2.5-ci yarımbəndin 1-ci abzasında, 8.3.1-ci yarımbənddə, 8.5-ci, 8.6-cı və 8.8-ci bəndlərdə ismin müvafiq hallarında "**Müşahidə Şurası**" sözləri ismin müvafiq hallarında "**İdarə Heyəti**" sözləri ilə əvəz edilmişdir.

[4] 25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə "Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyətində kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 5.1-ci bəndindən (birinci halda) "**Müşahidə Şurası,**" sözləri çıxarılmışdır.

2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 5.1-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~5.1. Risklərin idarə edilməsi *Fondun* Müşahidə Şurası, *İdarə Heyəti* tərəfindən yaradılan risklərin idarə edilməsi üzrə daxili komitə, İdarə Heyəti və digər məsul struktur bölmələr tərəfindən həyata keçirilir.~~

[5] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 6.1.2-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~6.1. Kredit reytinqi sistemi aşağıdakı meyarlara cavab verən kredit reytinqi modeli əsasında tətbiq olunur:~~

~~6.1.1. məbləği 200 000 (iki yüz min) manat və ondan az olan zəmanət üzrə borcalanın kredit reytinqini müvəkkil bank müəyyənləşdirib *Fonda* təqdim edir. Bir-biri ilə əlaqədar borcalanlar qrupuna iki və daha artıq müqavilə üzrə zəmanət verildikdə və bu zəmanətlərin ümumi məbləği 300 000 (üç yüz min) manatdan çox olduqda, onun kredit reytinqi bu Qaydanın 6.1.2-ci yarımbəndinə uyğun müəyyən edilir;~~

~~6.1.2. məbləği 200 000 (iki yüz min) manatdan çox olan zəmanət üzrə borcalanın kredit reytinqi müvəkkil bankla yanaşı, *Fond* tərəfindən də onun kredit reytinqi modeli əsasında müəyyən edilir.~~

[6] 4 oktyabr 2018-ci il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 5 oktyabr 2018-ci il, № 223, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 10, maddə 1991)** ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 6.3-cü yarımbəndində "**reyestri məlumatları**" sözləri "**hesabatı**" sözü ilə əvəz edilmişdir.

[7] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 7-ci hissəsi yeni redaksiyada

verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

**7. Zəmanətin kreditə nisbəti və illik komissiyanın müəyyən edilməsi**

7.1. Bu Qaydanın 6.1.2-ci yarımbəndinə uyğun verilən zəmanət üzrə zəmanətin kreditə nisbəti (örtülmə əmsalı) müəyyən olunarkən aşağıdakı cədvəldən istifadə edilməklə təminatın kreditə nisbəti (aşağı, orta və yuxarı) və bu Qaydanın 6.2-ci bəndinə əsasən müəyyən olunmuş risk kateqoriyası əsas götürülür:

| **Təminatın kreditə nisbəti** | **Risk kateqoriyası** | |
|---|---|---|
| | **Ortariskli** | **Aşağıriskli** |
| aşağı | 75% | 70% |
| orta | 70% | 65% |
| yuxarı | 65% | 60% |

7.2. *Fondun* kredit reytinqi modelinin nəticələrinə görə "yüksəkriskli" kateqoriyaya aid olan kreditlərə zəmanət verilmir.

7.3. Bu Qaydanın 6.1.2-ci yarımbəndinə uyğun verilən zəmanət üzrə *Fonda* ödənilməli olan illik komissiya, bu Qaydanın 7.1-ci bəndinə əsasən müəyyən edilmiş zəmanətin kreditə nisbəti hədləri nəzərə alınmaqla, aşağıdakı cədvəldə göstərilən qaydada müəyyən olunur:

| **Zəmanətin kreditə nisbəti** | **İllik komissiya** |
|---|---|
| 75% | İllik komissiyanın yuxarı həddi |
| 70% | İllik komissiyanın yuxarı həddi x 0.80 |
| 65% | İllik komissiyanın yuxarı həddi x 0.65 |
| 60% | İllik komissiyanın yuxarı həddi x 0.50 |

7.4. Bu Qaydanın 6.1.1-ci yarımbəndinə uyğun verilən zəmanət üzrə zəmanətin kreditə nisbətinin yuxarı həddi 65% müəyyən edilir.

7.5. Bu Qaydanın 6.1.1-ci yarımbəndinə uyğun verilən zəmanət üzrə *Fonda* ödənilməli olan illik komissiya aşağıdakı cədvəldə göstərilən qaydada müəyyən olunur:

| **Təminatın kreditə nisbəti** | **İllik komissiya** |
|---|---|
| aşağı | İllik komissiyanın yuxarı həddi |
| orta | İllik komissiyanın yuxarı həddi x 0.80 |
| yuxarı | İllik komissiyanın yuxarı həddi x 0.65 |

7.6. Təminatın kreditə nisbəti kateqoriyalarının (aşağı, yuxarı və orta) hədlərini *Fondun İdarə Heyəti* müəyyən edir və ona ən azı ildə bir dəfə olmaqla yenidən baxılır.

7.7. İllik komissiyanın yuxarı həddini *Fondun İdarə Heyəti* müəyyən edir və ona ən azı ildə bir dəfə olmaqla yenidən baxılır.

7.8. Bu Qaydanın 7.1-ci və 7.4-cü bəndlərinin tətbiqi zamanı *Fondun* müəyyən etdiyi zəmanətin kreditə nisbəti, müvəkkil bankın müraciəti əsasında, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nda müəyyən edilmiş həddə qədər azaldıla bilər. Bu zaman zəmanətə görə illik komissiya dəyişdirilmir.

[8] 7 may 2020-ci il tarixli **1016** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 8 may 2020-ci il, № 90, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 5, maddə 541)** ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 7.1-ci bənddəki cədvəl yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

| ~~*Təminatın kreditə nisbəti*~~ | ~~*Risk kateqoriyası*~~ | |
|---|---|---|
| | ~~*Ortariskli*~~ | ~~*Aşağıriskli*~~ |
| ~~*Aşağı*~~ | ~~*75%-dək*~~ | ~~*70%-dək*~~ |
| ~~*Orta*~~ | ~~*70%-dək*~~ | ~~*65%-dək*~~ |
| ~~*Yuxarı*~~ | ~~*65%-dək*~~ | ~~*60%-dək*~~ |

[9] 7 may 2020-ci il tarixli **1016** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 8 may 2020-ci il, № 90, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 5, maddə 541)** ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 8.2.1-ci yarımbəndin 3-cü abzasında "**7.6-cı**" sözləri "**7.4-cü**" sözləri ilə əvəz edilmişdir.

[10] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 8.2.3-cü yarımbəndin birinci abzasından "**səlahiyyətli orqanının**" sözləri çıxarılmışdır.

[11] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 8.4-cü bəndində "**90%-indən**" sözləri "**Fondun İdarə Heyəti tərəfindən müəyyən edilən müvafiq həddindən**" sözləri ilə əvəz edilmişdir.

[12] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 8.8-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~8.8. *Fondun* səlahiyyətli orqanı risklərin idarə edilməsi sisteminin effektivliyini qiymətləndirir və onun təkmilləşdirilməsi ilə bağlı *Fondun İdarə Heyətinə* təkliflər verir.~~

[13] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 9.1-ci bəndinə "**Müvəkkil banklar**" sözlərindən sonra "**Elektron hökumət" portalında olan "Elektron ipoteka və kredit zəmanət" sistemi (bundan sonra – elektron sistem) vasitəsilə**" sözləri əlavə edilmişdir.

[14] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi

sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 9.1.5-ci yarımbəndi ləğv edilmişdir və 9.1.4-cü yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilmişdir.

[15] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 9.2-ci bəndindən "**, 9.1.5-ci yarımbəndində nəzərdə tutulan məlumatlara dair hesabatlar isə rüblük əsasda**" sözləri çıxarılmışdır.

[16] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 9.3-cü bəndindən "**dövri**" sözü çıxarılmışdır.

[17] 7 may 2020-ci il tarixli **1016** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 8 may 2020-ci il, № 90, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 5, maddə 541)** ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"nın 9.5.2-ci yarımbənddən "**ən azı 3 (üç) iş günü**" sözləri çıxarılmışdır.

[18] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"na yeni məzmunda 10-cu hissə əlavə edilmişdir.